

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 12 (23.899)

20 yanvar 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr və 2021-ci ildə görülmüş işlərlə bağlı keçirilən kollegiya iclasını xidmətin rəisi Namiq Paşayev açıb. Bildirib ki, 2021-ci ilin on iki ayı ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 476 743 006 kilovat-saat elektrik enerjisi daxil olub, bunun 31 939 000 kilovat-saatı İran İslam Respublikasından alınıb, 52 381 336 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 36 361 700 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 33 197 800 kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 870 600 kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 6 759 500 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyasında, 262 601 000 kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 50 794 910 kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında, 1 837 160 kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. Bəhs olunan dövrdə İran İslam Respublikasına 31 967 000 kilovat-saat elektrik enerjisi verilib. Həmçinin hesabat ilində elektrik stansiyalarında 444 804 006 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 129 570 936 kilovat-saatı və ya 29,13 faizi su elektrik stansiyalarında, 264 438 160 kilovat-saatı və ya 59,45 faizi istilik elektrik stansiyalarında, 50 794 910 kilovat-saatı və ya 11,42 faizi Günəş elektrik stansiyalarında istehsal edilib. 2021-ci ilin on iki ayı ərzində alternativ və bərpa olunan enerji mənbələrində 180 365 846 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 40,55 faizini təşkil edir.

Diqqətə çatdırılıb ki, Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının və gücü 15,6 meqavat olacaq Tivi Su Elektrik Stansiyasının tikinti-quraşdırma işləri davam etdirilir, eyni zamanda Ordubad rayonunda gələcəkdə külək turbinlərinin istismarının texniki-iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb və lazımi ölçmə işləri, eyni zamanda Culfa rayonunda yeni külək turbinlərinin quraşdırılması üçün ərazinin seçilməsi və layihələndirmə işləri aparılır.

Vurğulanıb ki, ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının icrası ilə əlaqədar olaraq tələbələrin istehsalat təcrübələri keçmələrinə lazımi şərait yaradılıb, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Elektroenergetika mühəndisliyi ixtisasını bitirən 9 məzun xidmətin ayrı-ayrı struktur bölmələrində daimi işlə təmin olunub.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *



Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətində keçirilən kollegiya iclasında Dövlət Vergi Xidmətinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev qeyd edib ki, 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının vergi orqanları üzrə müəyyən olunmuş proqnoza 108,6 faiz icra edilib. 2021-ci il üzrə müəyyənləşdirilmiş proqnozlar yerli vergi orqanlarının hər biri üzrə yerinə yetirilib.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti tərəfindən 2021-ci ildə Tədbirlər planları təsdiq olunub və icrası təmin edilib.

Diqqətə çatdırılıb ki, Dövlət Vergi Xidmətinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasına məsuliyyətlə yanaşacaq, onların icrasının təmin edilməsi istiqamətində bütün tədbirləri həyata keçirəcəkdir.

İclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti rəisinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov nəzərə çatdırıb ki, hesabat dövrü ərzində vergiödəyicilərinə xidmət strukturları tərəfindən 27 kənd mərkəzində və 4 bələdiyyədə maarifləndirici görüşlər keçirilib, vergiödəyicilərinin elektron ünvanlarına, ümumilikdə, 163 min bildiriş və müraciətlər göndərilib, 60 vergiödəyicinin 360 işçisi əməkhaqqı kartı ilə təmin olunub.

2021-ci il ərzində nağdsız ödənişlərin həcminin artırılması məqsədilə "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirlər keçirilib, nağdsız hesablaşmalardan istifadə edərək 400 manatdan yuxarı məbləğdə nağdsız ödəniş aparan vətəndaşların həyata keçirdiyi məbləğlərə uyğun olaraq 887 vətəndaşa 50 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxat Respublikası "Naxçıvanpoçt" publik hüquqi şəxsdə 2021-ci ilin yekununda görülən işlər və qarşıda duran vəzifələr barəsində kollegiya iclası keçirilib.

Tədbirdə çıxış edən "Naxçıvanpoçt" publik hüquqi şəxsin direktoru Səxavət Bağırov bildirib ki, 2021-ci ildə Naxçıvan Muxtar Respublikasında aparılan infrastruktur quruculuğundan "Naxçıvanpoçt" publik hüquqi şəxsi də öz töhfəsini almışdır. Belə ki, yola saldığımız 2021-ci ildə Şərur rayonunun Şəhriyar və Dərvişlər, Babək rayonunun Araz və Göynük, Ordubad rayonunun Aşağı Əndəmic, Vələver kəndlərində yeni poçt bölmələri yaradılmış, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kənd poçt bölmələri isə yeni bina ilə təmin olunaraq istifadəyə verilmişdir. Həmin bölmələrdə müasir iş şəraiti yaradılmışdır. Ordubad rayonunun Unus, Kələki və Pəzməri kəndlərində isə poçt bölmələrinin tikintisi davam etdirilmişdir. 2022-ci il yanvar ayının 14-də Şərur rayonunun Çərçiboğan kəndində poçt bölməsinin istifadəyə verilməsi bu il də respublikamızda quruculuq işlərinin sürətlə aparılacağından xəbər verir.

Qeyd olunub ki, "Naxçıvanpoçt" publik hüquqi şəxs də yaradılan şəraitdən istifadə edərək il ərzində əhaliyə fasiləsiz poçt xidmətləri göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamına uyğun olaraq 2021-ci il sentyabr ayında Qars müqaviləsinə həsr olunmuş yüz min ədəd poçt markası və iyirmi beş min ədəd poçt zərfi çap olunaraq dövriyyəyə buraxılmışdır.

Vurğulanıb ki, ötən il "Naxçıvanpoçt" publik hüquqi şəxs tərəfindən 2020-ci illə müqayisədə 5651 manat və ya 19 faiz çox 36 min 165 manat dəyərində bağlama, həmçinin 6902 manat və ya 84 faiz çox 15 min 128 manat dəyərində kiçik paket qəbul olunmuş və vaxtında ünvanlara çatdırılmışdır.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla yekunlaşıb.



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi Müslüm Cabbarzadə açaraq bildirib ki, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq meyvə bağlarının salınması məqsədilə fiziki şəxslərin icarəsinə verilib, ümumilikdə, 3,39 hektar torpaq sahəsinin topoqrafik planları hazırlanıb. Meyvə bağlarının və yaşıllıq zolaqlarının inventarlaşdırılması məqsədilə muxtar respublika üzrə 2004 hektar meyvə bağı, 355 hektar üzümlük, 888 hektar meşə zolağı plana alınaraq xəritələşdirilib. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"na müvafiq olaraq əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələri xidmətin məlumat bazasında saxlanılan ortofotoplanlar və aerokosmik şəkillər vasitəsilə kameral şəraitdə müəyyənləşdirilib, hazırlanmış xəritə materialları Kənd Təsərrüfatı Nazirliyinə və müvafiq rayon icra hakimiyyətlərinə təqdim edilib.

Vurğulanıb ki, "Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na müvafiq olaraq Qafqaz Hərbi Dairəsinin 1903-cü ilə dair hərbi-topoqrafik xəritəsi, Azərbaycan Demokratik Respublikasının sərhədlərini əks etdirən 1918-1920-ci illərə dair xəritə, Qafqazın 1926-cı ilə dair 5 verstlik (1:210 000 miqyaslı) topoqrafik xəritəsi beynəlxalq koordinat sisteminə uyğunlaşdırılıb, müqavilədə qeyd olunan coğrafi obyektlərin koordinatları xəritə üzərinə köçürülüb. Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit olunmuş ərazisinə dair xəritə hazırlanıb.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə muxtar respublika üzrə 2944 torpaq sahəsi, 83 qeyri-yaşayış binası, 110 qeyri-yaşayış sahəsi, 1574 mənzil, 2751 fərdi yaşayış evi, 11 bağ evi, 30 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 7503 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Daxil olmuş müraciətlər əsasında 2223 əmlaka dair texniki pasport, 3470 torpaq sahəsinə dair plan-ölçü, ümumilikdə, 5693 texniki sənəd hazırlanıb.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

2021-ci ilin yekunu və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələrlə bağlı "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsdə keçirilən ümumi iclasda publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev məruzə ilə çıxış edib. Bildirib ki, hesabat dövründə şəhərdaxili ictimai nəqliyyat üzrə 4 600 000-dən artıq sərnişinə daşınma xidməti göstərilib. 2020-ci ilin sentyabr ayından fəaliyyətə başlayan, muxtar respublika əhalisi tərəfindən razılıqla qarşılanan "Elektron taksi xidməti" 2021-ci il ərzində də fəaliyyətini uğurla davam etdirib, ümumilikdə, 517 721 sifariş qəbul olunaraq sərnişinlərə 1 478 614 manat dəyərində xidmət göstərilib. Yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilib, yükdaşımalarda təhlükəsizlik tədbirləri haqqında həmin sürücülərlə profilaktik söhbətlər aparılıb. İyul ayının 17-dən muxtar respublika əhalisi üçün xüsusi əhəmiyyətə malik olan, lakin pandemiya ilə əlaqədar olaraq fəaliyyəti dayandırılan Naxçıvan-Bakı-Naxçıvan marşrutunda işləyən



avtobusların fəaliyyəti bərpa edilib.

Bildirilib ki, Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında fəaliyyət göstərən Naxçıvan-İqdır-Naxçıvan avtobus marşrutunun da fəaliyyəti nəzarətdə saxlanılıb. Turların təşkili üçün Türkiyənin müvafiq tur şirkətləri ilə sərnişindaşıma müqavilələri imzalanıb.

Vurğulanıb ki, bəhs olunan dövrdə muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilib, fəaliyyətdə olan 135 marşrut xəttində 313 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilib, mövsüm ərzində qarşıya çıxacaq hər hansı nasazlığı vaxtında aradan qaldırmaq üçün təmir sexləri hazır vəziyyətə gətirilib.

İclas məruzə ətrafında çıxışlarla başa çatıb.

* * *



"Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsdə keçirilən iclası fondun sədri Rasim Bağırov açaraq bildirib ki, 2021-ci ildə aidiyyəti orqanlar tərəfindən məcburi dövlət sosial sığorta haqlarının yığılması üzrə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun xəzinə hesabına 113 milyon 177 min 600 manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan məbləğdən 3 milyon 777 min 600 manat çoxdur. Məcburi dövlət sosial sığorta haqlarının 80 milyon 188 min 600 manatı büdcə təşkilatlarından daxil olub. Qeyri-büdcə sektoru üzrə 32 milyon 989 min manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan məbləğlə müqayisədə 4 milyon 889 min manat çox vəsait deməkdir.

Vurğulanıb ki, məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda qeydə alınan artım muxtar respublikada əmək pensiyaları və müavinətlərin hər ay vaxtında maliyyələşdirilməsinə şərait yaradıb. 2021-ci ildə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 188 milyon 214 min manat, o cümlədən əmək pensiyalarının ödənilməsinə 184 milyon 362 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərə 3 milyon 852 min manat vəsait ayrılıb. Əmək pensiyaları və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 60,1 faizi muxtar respublikada məcburi dövlət sosial sığortahaqqı olaraq yığılıb.

Bildirilib ki, ki, 2021-ci ildə fondun yerli orqanları tərəfindən muxtar respublika üzrə 1249 nəfərə yaşa, 170 nəfərə sağlamlıq imkanları məhdudluğa, 451 nəfərə isə ailə başçısını itirməyə görə, ümumilikdə, 1870 nəfərə əmək pensiyası təyin edilib. Ötən il ərzində fonda müvafiq icra hakimiyyəti orqanlarından daxil olmuş məktublara əlavə olunan məlumat vərəqələrinə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı yaralanmış 36 hərbi qulluqçuya hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlıq imkanları məhdudluğa, həlak olmuş 44 hərbi qulluqçunun 96 nəfər ailə üzvünə ailə başçısını itirməyə görə əmək pensiyası təyin olunub.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# 20 Yanvar xalqımızın qəhrəmanlıq salnaməsidir

*20 Yanvar tariximizin qəhrəmanlıq salnaməsi, xalqımızın vətənpərvərlik nümunəsi, azadlıq mübarizəsinin rəmzi, iftixar günüdür. Yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilməmiş, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdirmişlər. Azərbaycan övladları ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya göstərərək 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu tarix Azərbaycan xalqının əyilməz bir xalq olduğunu, müstəqilliyi pay olaraq deyil, haqqı olaraq qazandığını sübut edir.*

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə... Xalqımızın tarixinə qanla yazılmış bir səhifə. Bu səhifəni təkcə faciə adlandırmaq olmaz. Bu, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, azadlıq istəyinin oyanış günüdür. Uzun illər Sovet İmperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

1990-cı il yanvarın ortalarında silahsız, dinc əhaliyə qarşı keçirilən həmin qanlı əməliyyat SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostov vilayətlərindən səfərbərliyə alınmış erməni əsgər və zabitlər, orduda xidmət edən ermənilər daxil edilmişdi. Xüsusi təlim keçmiş qoşun hissələri yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə 3 istiqamətdə yeridilərək dinc əhaliyə qarşı misligörünməmiş vəhşiliklər etmişlər. Bu hadisə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir.

"Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində Bakıda törədilmiş qırğının əsl mahiyyətini gizlədərək yazırdı: *"Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."*

Bu qanlı terrora qədər artıq Naxçıvanın Ermənistanla sərhədində ermənilər sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçmişdilər. Bakıda və Azərbaycanın digər bölgələrində sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə olunduğunu sübut edirdi. Sədərəyi qoruyan könüllülər oldu. Həmin gün 8 şəhid verildi. Erməni quldurları Naxçıvan torpaqlarını ələ keçirmək məqsədilə 1990-1993-cü illərdə dəfələrlə Sədərəyə hücum ediblər. Daha dəqiq desək, bu qısa müddətdə Sədərəkdə 14 dəfə qanlı döyüş olub. Həmin döyüşlərdə 108 nəfər şəhidlik zirvəsinə ucalmışdır.

Bu dövrdə Naxçıvanda baş verən hadisələri ümummilli liderimiz Heydər Əliyev belə dəyərləndirmişdir: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi".***

Bu qanlı terror aktına ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirmiş, bu cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi kəskin ittiham etmişdi. Görkəmli dövlət xadimi Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb etmişdir. Onu da xüsusi vurğulamaq lazımdır ki, SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ancaq ulu öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etirazını, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü bildirmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlunun bu bəyanatı bütün dünyada geniş əks-səda doğurmuşdur. Ulu öndər sonradan o günləri xatırlayarkən demişdir: ***"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".***

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının ən çətin anında Moskvadan doğma Vətəninə qayıdanda Azərbaycan çox ağır günlərini yaşayırdı. Respublikamız parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Xalqımızın böyük oğlu Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Böyük siyasətçinin öz xalqına olan sevgisi, xalqın da ümummilli liderimizə inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderimiz tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Qərarda deyilirdi: *"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətlərin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır".* Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması da öz əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ümummilli liderimizin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə baş vermişdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətinin günbəgün artması, haqq səsimizin beynəlxalq tribunalardan səslənməsi xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə təminat verir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün davam edən Vətən müharibəsində müzəffər Ordumuz əzəli torpaqlarımızı işğaldan azad etdi, şəhidlərimizin qisası alındı, tökülən qanlar yerdə qalmadı, Azərbaycan misilsiz tarixi qələbə qazandı. Ölkə Prezidentinin də dediyi kimi: ***"Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".***

Azərbaycan xalqı 20 Yanvar günü, istiqlaliyyət, torpağı, azadlığı, xalqı, onun gələcəyi naminə haqq səsini ucaldaraq şəhidlik zirvəsinə ucalan oğul və qızlarına söz vermişdi ki, uğrunda can qoyduqları bu Vətənin müstəqilliyini təmin edəcək, doğma ərazilərinə göz dikən mənfur düşmənə layiqli cavab verərək ərazi bütövlüyünü sonsuzadək qoruyacaq. Ulu öndər Heydər Əliyevin də dediyi kimi: "***Biz torpaqlarımızın azadlığını, ərazi bütövlüyümüzü təmin edəcəyik, müstəqil Azərbaycanın hüdudlarını bərpa edəcəyik".*** Və müzəffər Azərbaycan Ordusunun 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Zəfər yürüşü düz 32 il əvvəl verdiyimiz sözün yerinə yetdiyi, şəhidlərimizin ruhunun şad olduğu müqəddəs anlarla tarixə həkk olundu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Qarabağın tacı Şuşanın işğalçılardan azad edilməsi xəbərini də məhz Şəhidlər xiyabanından Azərbaycan xalqına müjdələməsi təsadüfi deyildi: ***"2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"*** Bəli, Azərbaycan xalqı zülmə qarşı barışmaz olduğunu 20 Yanvar gecəsində sübut etdiyi kimi, illər sonra Vətən müharibəsində düşmənə "dəmir yumruq" ilə layiqli cavab verərək bir daha bütün dünyaya bəyan etdi. 44 günlük müharibədəki tarixi Qələbə ilə xalqımız Vətəni canından, qanından artıq sevdiyini bir daha dosta da, düşmənə də nümayiş etdirdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir. Azərbaycan xalqı onun qanlı yaddaşında silinməz iz qoyan 20 Yanvar tarixini hər il qeyd edir, öz qəhrəman övladlarının əziz xatirəsini dərin ehtiramla yad edir. Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12-də Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də qürur mənbəyi olacaqdır. Xalqımız əsl qəhrəmanlıq və vətənpərvərlik nümunəsi, şərəf tariximiz olan bu günü heç vaxt unutmayacaqdır. Tarixi qələbəmiz, müstəqil və qüdrətli Azərbaycan isə şəhidlərimizin ruhuna ehtiramın ən yüksək ifadəsidir. Nə qədər ki, qüdrətli Azərbaycan, müzəffər Ordumuz, vətənpərvər xalqımız var, şəhidlərimizin xatirəsi də əbədi yaşayacaq, Vətən, torpaq, dövlətçilik uğrunda canından keçənlər heç vaxt unudulmayacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".***

**"Şərq qapısı"**

# 20 Yanvar hadisəsinin ildönümü münasibətilə tədbir keçirilib

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində 20 Yanvar hadisəsinin ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, 20 Yanvar şəhidlərinin, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.



Tədbiri açıq elan edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qan yaddaşımıza müstəqilliyə yol açan qanlı, qətllərlə dolu tarix və şərəfli qəhrəmanlıq salnaməsi kimi həkk olunmuş 20 Yanvar hadisələri ilə bağlı geniş məlumat verərək qeyd edib ki, bu gün Azərbaycan xalqının tarixinə Qanlı Yanvar kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrindən artıq 32 il keçir. Keçmiş Sovetlər Birliyi rəhbərliyinin qanlı zehniyyətinin və hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz tarixdə azərbaycanlılara qarşı deyil, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda respublikamızın şəhər və rayonlarında, xüsusilə Bakıda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Bu tarix, əslində, xalqımızın müstəqillik əzmini, milli kimliyimizi dünyaya tanıdan tarixi bir gün oldu. Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcı oldu.

Bu qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə ətraflı danışan daimi nümayəndəliyin rəhbəri bildirib ki, 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı.Yalnız bundan sonra 1990-cı ilin Qanlı Yanvar hadisəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində ordumuz torpaqlarımızı işğaldan azad etdi. Keçən əsrin sonlarından bu günə kimi Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar şəhidlərinin qisası alındı. Ali Baş Komandanımız cənab İlham Əliyev bir sərkərdə kimi dünyaya daha müasir hərb qaydaları, yeni müharibə taktikası təqdim etdi.

Qeyd edilib ki, 20 Yanvar günü hər il Naxçıvanda da Ümumxalq Hüzn Günü kimi muxtar respublikanın bütün rayon və şəhərlərində ucaldılmış və ziyarətgaha çevrilmiş 20 Yanvar abidələrinin önündə insanların izdihamlı keçidi ilə yad edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa qayğısı ilə şəhid və qazi ailələrinə göstərilən diqqət, qayğı, bu sahədə görülən işlər gənc nəsillərdə gələcəyə ümid, etibar, Vətənə, torpağa bağlılıq hissinin möhkəmləndirilməsinə əsaslı zəmin yaratmaqdadır.

Tədbir digər çıxışlar və İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorlarının ifasında "Şəhidlər ölməz,Vətən bölünməz" adlı bədii kompozisiya ilə davam etdirilmişdir.

***AZƏRTAC***

## *“20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq tarixi”* mövzusunda interaktiv dərs keçilib



***20 Yanvar faciəsi təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilən dəhşətli terror aktıdır. Bu fikir Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbi arasında “20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq tarixi” mövzusunda keçilən interaktiv dərsdə səslənildi.***



*Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb*



*Ordubad rayon Dırnıs kənd tam orta məktəbi*

İnteraktiv dərsdə muzeyin bələdçisi bildirib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əks etdirən materiallar saxlanılır. Eyni zamanda muzeydə qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Vurğulanıb ki, 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları başlanıb və bununla da 20 Yanvar faciəsinin ilk qanlı səhifəsi yazılıb, ilk şəhidlər verilib. Buna baxmayaraq, naxçıvanlılar düşmənin önündə mərdliklə dayanaraq qəhrəmancasına mübarizə aparıb, Naxçıvanı qoruyub saxlayıblar.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Bu gün Azərbaycan həqiqətlərinin dünyaya olduğu kimi çatdırılması üçün bütün imkanlardan istifadə edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirir.

Sonra Vətən müharibəsində qazandığımız böyük qələbə haqqında şagirdlərə məlumat verilərək bildirilib ki, xalqımız 20 Yanvar faciəsini, torpaqlarımızın işğal tarixlərini 44 günlük Vətən müharibəsinin şanlı qələbəsi ilə əvəz edib. Bu Tarixi Zəfər təsdiq etdi ki, xalqımızın birliyini, mübarizə əzmini heç bir qüvvə qıra bilməz. Xalqımız milli tarixin ən möhtəşəm səhifəsini yaşadı. Bu müharibə igidlərimizin nəyə qadir olduğunu bir daha sübut etdi. Hərbçilərimiz böyük şücaət, qəhrəmanlıq göstərərək işğal altında olan torpaqlarımızı geri qaytardı. Azərbaycan səbirli və qəhrəman xalqdır. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi.

Muzeydəki eksponatlar barədə şagirdlərə bildirilib ki, Xatirə Muzeyində Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar var. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə ümummilli lider Heydər Əliyevin 20 Yanvar hadisəsi ilə bağlı imzaladığı fərmanların surətləri, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Qeyd edək ki, interaktiv dərs 200-dən çox ümumtəhsil məktəbində izlənilib. Həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Gənclər Xatirə Muzeyini ziyarət ediblər

Tarixi gerçəkliklərin öyrənilməsi, gənclərin vətənpərvərlik hisslərinin artırılması məqsədilə bir qrup könüllü gəncin iştirakı ilə Naxçıvan şəhərində yerləşən Xatirə Muzeyinə ekskursiya təşkil olunub.

Muzeyin bələdçisi iştirakçıları adıçəkilən məkanın yaranma tarixi və ekspozisiyası haqqında məlumatlandırıb. Bildirilib ki, muzey ermənilər tərəfindən törədilən soyqırımı qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılıb. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri muzeydə nümayiş olunan eksponatlarda öz əksini tapıb. Döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş olunur.

Xatirə Muzeyində Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar var. Həmçinin burada həmin hadisələr zamanı şəhidlik zirvəsinə ucalan Vətən oğullarının fotoşəkilləri, şəxsi əşyaları da nümayiş etdirilir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Qanlı Yanvar – şərəfli mübarizə tariximiz bədii ədəbiyyatımızda

***Əslində, əsl ədəbiyyat elə həqiqət, həyat həqiqəti deməkdir. Bədii ədəbiyyat bütün zamanlarda: istər qədim türk qəhrəmanlıq dastanlarımızda, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanlarında, istərsə də Nizami Gəncəvi, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, mollanəsrəddinçilərin yaradıcılığında olduğu kimi, 1990-cı illərdə də xalqa xidmət, Vətənin bütövlüyü, müstəqil dövlət quruluşu uğrunda mübarizə kimi ən ali vəzifələri qarşısına qoymuşdur. XX əsrin 80-90-cı illərində mübarizənin ən ön sıralarında gedənlər xalqı Azərbaycanın xilaskarı, cəsarətli, qətiyyətli ulu öndərimiz Heydər Əliyevin ətrafında sıx birləşərək imperiya əsarətindən xilas olmağa çağıran ziyalılar, şair və yazıçılar idi.***



*“Azadlıq mübarizəsi”, Rəssam-Həbibə Allahverdiyeva*

Ümumən, Azərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvan ədəbi mühitinin nümayəndələri də bu faciəni ümumxalq kədəri, matəmi, həm də qəhrəmanlıq tariximiz kimi dəyərləndirdilər. Ədəbiyyatımızın 60-cılar nəslinin istedadlı nümayəndəsi, Xalq şairi Məmməd Araz: “Qalx ayağa, ya azad ol, ya tamam yan, Azərbaycan!” deyən ustad Məhəmmədhüseyn Şəhriyar çağırışının davamı olan, 1992-ci ildə qələmə alınmış “Ayağa dur, Azərbaycan!” şeiri ilə xalqı ağlamağa, sızlamağa yox, döyüşə həvəsləndirirdi:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri biz hər şeyi bölə billik!*
*Səndən qeyri biz hamımız ölə billik!*

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair, dramaturq Asim Yadigar “Döyüş havaları çaldırmalıyıq!” adlı şeirində xalqı göz yaşı tökmək yerinə mübarizə üçün birləşməyə, ayağa qalxmağa çağırır:

*Yetər bu inilti, yetər göz yaşı,*
*Ər olsun yurdumun hər vətəndaşı,*
*Qaldıraq, sındıraq bu ağır daşı,*
*Döyüş havaları çaldırmalıyıq,*
*Milləti ayağa qaldırmalıyıq!*

Ədəbiyyatımıza 60-cı illərdə gəlmiş Adil Qasımlının “Qərənfillər solmaz oldu” adlı şeiri həmin gecənin səhəri alqırmızı rəngə boyanmış Bakı küçələrində günahsız insanların qanlarının üstünü örtməyə çalışan qərənfil dəstələrini və qəlbi qisas hissi ilə alovlanan insanların çöhrələrini təsəvvürümüzdə canlandırılır. 20 yaşlı gənc şair, publisist Ülvi Bünyadzadəni, yenicə ailə quran, bir-birini böyük məhəbbətlə sevən İlham və Fərizə kimi gəncləri, Larisa kimi məktəbli gül-çiçəklərin mübarizə ideyalarının solmayacağını belə ifadə edir:

*Dedik, bəlkə, haqqa yetər əlimiz,*
*Haray çəkdik, qadaqlandı dilimiz.*
*Solduruldu çəmən-çəmən dilimiz,*
*Qərənfillər solmaz oldu bu yerdə.*

Şeirdə mübarizə əzmini itirməmək, mübarizəni davam etdirmək qərarına gəlinməsi də gələcəyə inam hissini təbliğ edir.

Naxçıvanın qeyrət qalası Sədərəyin sözü ilə əməli bir-birini tamamlayan istedadlı şairi Vaqif Məmmədov “Sədərək harayı”, “Sədərək şəhidləri”, “Qeyrət qalası”, “Erməni xəyanəti”, “Unutsaq unudularıq” kitablarında 1990-cı il hadisələrində bilavasitə iştirak edən və şahidi olduğu hadisələri qələmə alan, 18 may 1992-ci il faciəsindən sonra bütün sədərəklilər kimi qırx gün yas saxlayan, Xocalı və Sədərək harayını əks etdirən “Ağlama, bacı, ağlama”, “Dərdin də qoşası, cütü olarmış”, “Dəyanət dəmiydi, qeyrət dəmiydi”, “Diz çökürəm bu qeyrətin önündə”, “Qara çadırlar” kimi təsirli şeirlərini beynəlxalq simpoziumlardan dünyaya çatdıran, bu ədalətsiz və elan olunmamış müharibənin acı nəticələrindən təsirlənən, eyni zamanda Naxçıvanın ictimai həyatında çox fəal iştirak edən vətənpərvər və humanist bir şair idi. Vaqif Məmmədovun cəbhə şeirləri, xüsusən də “Sədərək harayı” şeirlər kitabını Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə Sədərəyin bugünkü müsibətinin sabah üçün tarixi kimi qiymətləndirmişdi. Ermənilərin başımıza gətirdiyi saysız-hesabsız müsibətlərin bədii ifadəsi olan bu şeirlərin gələcək nəsillərə çatdırılmasının böyük əhəmiyyəti vardır. Tək bircə kəndin – Sədərəyin timsalında bütün Azərbaycanı, bütöv Vətəni ümumiləşdirdiyi şeirlərindən ibarət ikinci kitabını şair haqlı olaraq “Sədərək harayı” adlandırır. Sədərəkdə gedən bu ağır döyüşlərdə V.Məmmədovun özü də şəxsən iştirak etmiş, qələmini silahla əvəz etmişdir. “Sədərək şəhidləri” kitabını çap etdirməkdə şairin əsas məqsədi əməlləri ilə, qanları bahasına əbədiyyət zirvəsinə ucalan Sədərək şəhidlərinin təkcə tərcümeyi-hallarını toplayıb gələcək nəsillərə çatdırmaq, yaddaşlarda yaşatmaqdır. 1990-cı illərin V.Məmmədov yaradıcılığında mahiyyətcə yeni mərhələ hesab olunması da məhz bu səbəbdəndir. Onun “Bu kənd niyə yetimdir?”, “Nədir bu körpənin günahı, Allah?”, “Ağlamalı gün gəlib”, “Şəhid ataları yerə baxırdı”, “Hayıf sənə”, “Çörəyim yanır” şeirlərinin mayasına acı təəssüf, iztirab və kövrəklik ruhu hopmuşdur. Ermənilərin hücumu ilə əlaqədar kəndin qadın və uşaqları köçürüldüyü bir vaxtda isti ana nəfəsindən, körpə təbəssümündən uzaq olan kəndə həsr etdiyi şeirin sonu nikbin əhvali-ruhiyyəlidir və qələbəyə inam hissi yaradır. Şair nəticə olaraq belə bir fikrə gəlir ki, bu kənd sala yiyəsiz, sahibsiz deyil! Həqiqətən də, “arxası, eli” olan bu kəndi qorumaq üçün Naxçıvanın, Azərbaycanın hər bir kəndindən, şəhərindən qəhrəman oğullarımız köməyə gəldilər, xalq bir yumruq kimi birləşib düşməni öz cəsarəti və igidliyi, dönməzliyi ilə heyrətə saldı. Sədərək döyüşlərinin qanlı-qadalı günlərini təsvir edən və bu gün də Vətən uğrunda döyüş ruhunda yazılmış ən gözəl poetik nümunələrdən olan “Dəyanət dəmiydi, qeyrət dəmiydi” şeirində bir səngər şairinin mübariz, vətənpərvər ruhu yaşayır:

*Dəyanət dəmiydi, qeyrət dəmiydi,*
*Yolumuz haqq işə uzanan yolsa,*
*Sədərək ümmanda batan gəmiydi,*
*Qeyrətsiz olsaydıq, silaha qalsa...*

Şair İbrahim Yusifoğlu 1988-ci illərin sonları və 1990-cı illərin mürəkkəb siyasi hadisələrini və Qanlı Yanvar faciəmizi “Mənim inamımı güllələdilər” adlı ikihissəli poemasında ən incə təfərrüatlarına qədər bədii dillə əks etdirmişdir: “19 yanvar 1990-cı il... İllərboyu üzərimizə tuşlanan silahların tətikləri çəkildi. Sinəsi odlananlar da oldu, şəhid olanlar da. Mənim isə inamım güllələndi”, – deyən şair Tanrıya üz tutaraq hər bir təbii gözəlliyi, yeraltı və yerüstü sərvətləri bəxş etmiş xalqına gözəl tale, qismət diləyir.

1991-ci ilin 19 yanvarında tamamlanan poemanı epiloq əvəzinə şair xalqı səbir etməyə, zamanın və tarixin haqlı olana söz verəcəyinə inanmağa çağıran “Hələ son sözümü deyə bilmirəm” misraları ilə bitirir.

Şair Xanəli Kərimlinin “Ağrı” poeması 1994-cü ildə qələmə alınsa da, 1990-cı ilin 20 yanvarında azadlığını tələb edən xalqımıza qarşı törədilmiş qanlı faciənin nəticəsi olaraq yaranmış Şəhidlər xiyabanı qarşısında dayanan şairin düşüncələrinin ifadəsidir.

Xanəli Kərimlinin “Bütövlük” lirik poeması da şəhidlik mövzusundadır. Şəhidlər xiyabanındakı əbədi məşəl bir xalqın qəhrəmanlıqlarla dolu keçmişinin, azadlıq uğrunda mübarizəsinin rəmzi, “şəhidlərin özü, günahsız bir millətin haqqa ismarladığı sualı, sözü, şəhid analarının ürək sözü” kimi dəyərləndirilir.

Gənc vətənpərvər şair Elxan Yurdoğlunun “Ağlayan – ağladan gün” adlı şeiri xalqı şəhidlərin nigaran ruhlarının rahatlığ tapması üçün qisas almağa səsləyir:

*Şanlı tariximin qanlı səhifəsi...*
*Şəhid anasının yanıqlı səsi,*
*Qocalı, cavanlı – bütün hər kəsi*
*Qisas duyğusuna bağlayır bu gün.*

Məhz bədii əsərlərdə ifadə olunan yüksək vətənpərvərlik, qələbəyə inam, düşməndən intiqam almağa çağırış hisslərinin və möhtərəm Ali Baş Komandanımızın uzun illər ərzində apardığı müdrik və uzaqgörən siyasətin, eyni zamanda müstəqil və güclü Azərbaycanın ən yüksək hərbi texnika ilə təmin olunmuş ordusunun və Vətən üçün canından keçməyə hazır olan igidlərinin səyi nəticəsində bu gün xalqımız şəhidlərinin ruhu qarşısında mənəvi borcunu yerinə yetirmiş və qalib bir ölkə kimi dünyaya öz gücünü göstərmişdir. Bu gün çox sevindirici bir haldır ki, Azərbaycan ədəbiyyatında və Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında Qarabağ dərdi və həsrəti, nisgili mövzusunu Qarabağa və itirilmiş doğma yurda qovuşmağın sözlə ifadə olunması çətinlik yaradan sonsuz sevinci, qüruru və fərəhi mövzusu tutmuşdur. Şəhidlərimiz müqəddəs kitabımız “Qurani-Kərim”də də göstərildiyi kimi, ölməyiblər, onlar Allahın, haqqın dərgahında əbədi yaşayırlar, çünki azad Azərbaycan uğrunda canlarından keçərək ölməzliyə qovuşublar. Müqəddəs şəhidlik zirvəsinə ucalan qəhrəman igidlərimizin ruhları artıq nigaran deyil, əbədi rahatlığa qovuşmuşdur!

**AYGÜN ORUCOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Azadlığı istəmədik zərrə-zərrə



***Naxçıvan torpağını qarış-qarış dolaşdıqca, tarixin toz basmış səhifələrini vərəqlədikcə məğlubedilməzliyi, qəhrəmanlığı, torpaq sevgisi, vətənsevərliyi ilə özünü təsdiq edən Oğuz türkünün şanlı tarixini görürük. Hər daşında ox nişanı olan bu torpağın özü qədər ulu və qədim olan, doğma və əzəmətli səslənən “Naxçıvan” sözü hər bir azərbaycanlı üçün əzizdir. Çünki Naxçıvan tarixboyu türk-islam aləminin alınmaz qalası, Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi olub və bu şanlı missiya bu gün də davam etməkdədir.***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpağı tarixboyu çox mürəkkəb çətin yollardan keçib. Belə çətin sınaqlardan birini də xalqımız keçən əsrin 80-ci illərində yaşadı. Sovetlər ittifaqının son illəri naxçıvanlıların yaddaşına çətinliklər, məhrumiyyətlər, qanlı qırğınlar dövrü kimi yazılmaqla bərabər, müstəqillik, azadlıq uğrunda şanlı mübarizə tarixi kimi də qaldı. Ötən əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz ermənilərin ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaratmışdı. Bu həmin vaxtlar idi ki, sərhədlərimizdə döyüş gedirdi, Azərbaycanın ozamankı rəhbərliyi Naxçıvana “kor bağırsaq” deyirdi. Onu “kəsib” Ana Vətənindən ayırmaq istəyirdi. Bu, o vaxt idi ki, hər yerdən ümidi üzülən yerli əhali günün çoxunu çörək növbələrində keçirirdi. Naxçıvanlılar isə həm döyüşür, həm də çətin bir sınaqla, qıtlıqla mübarizə aparırdı. Əsrlər öncə Əlincədə göstərilən rəşadət Sədərəkdə idi sanki. Səngərə əli silahsız atılan igid Vətən oğulları düşmənin yüzlərlə silahlısına layiqli cavab verir, onları geri oturdur, bir qarış belə, torpağa murdar erməninin ayağının dəyməsinə icazə vermirdi. Həmin günlər qədim yurdun hər kəndindən, şəhərindən oğullar axışdı Sədərəyə, bu torpağı müdafiə etdilər, can qurban verdilər Vətən dediyimiz bir ovuc torpağa. Kimi canından, kimisi sağlamlığından keçdi, amma bir ovuc torpaqdan keçmədik. “Vətəndən pay olmaz”, – dedik. O günlərdən artıq 32 il ötür.



Bir igidin ömrü qədər bir zaman. Bu gün Vətənin başladığı yerdə – Sədərəkdə şəhid qanıyla sulanan zirvələrdə dalğalanan üçrəngli, ayulduzlu bayraqlara baxanda qürurlanırıq. Həmin günləri isə həmsöhbət olduğumuz müharibə iştirakçılarından dinləyib qələmə alırıq. “Elə bir qəhrəmanlıq səhifəsidir ki, Sədərək döyüşləri onu yazmaqla, söyləməklə bitməz”, – deyir Sədərək döyüşləri iştirakçısı, Vətən müharibəsinin cəsur döyüşçüsü ***Murad Həsənov***un atası Rzaqulu əmi:

– Həmin günlər Azərbaycan xalqının taleyinə yazılan bu qara səhifə yurd, torpaq, Vətən sevgisinin sübut edildiyi bir tarixdir, həm də xalqımızın qəhrəmanlıq salnaməsidir... Duz-çörəyə xəyanət edənlər belini əymək istədilər anamız Azərbaycanın, amma əyə bilmədilər. Bakı şəhəri dirəkləri laxlamaqda olan imperiyanın qoşunları tərəfindən amansızcasına güllələbaran edildiyi bir gecədə yaranmış fürsətdən istifadə edən ermənilər və onların havadarları isə bütün sərhədboyu muxtar respublikamızı müxtəlif çaplı avtomat silahlardan, toplardan atəşə tutmağa başlamışdılar. Hamı bir oldu, bu dağlar-qayalar burada döyüşən igidlərin qanı ilə sulandı, amma bir qarışı düşmənə verilmədi. Həmin gecə od yağdırırdı dinc sakinlərin başına mənfur ermənilər. Bizim əlimiz, desək olar ki, yalın idi. Müasir silahlar ilə silahlanan və havadarından güc alan ermənilərə qarşı beş-on nəfər polis işçisi və könüllülər ov tüfəngi ilə döyüşürdük. Muxtar respublikanın bölgələrindən Sədərəyə axın-axın insanlar gəlir, döyüşə can atırdı. Hər tərəfdən küncə sıxışdırılsaq da, sınmadıq, əyilmədik. Mənim qayınım Mübariz Şahverdiyev də Sədərəyin müdafiəsində, döyüşlərdə şəhid olub. Bu gün fəxr hissi ilə deyirəm ki, oğlum Murad da Vətən müharibəsi iştirakçısı oldu. Qələbə ilə evimizə qayıtdı. Tanrı şəhidlərimizə rəhmət etsin, qazilərimizə isə şəfa versin.

***Yadulla Ələkbərov*** Sədərək döyüşlərinin iştirakçısı, şahididir. O deyir: – Həmin gecə başlayan qanlı döyüşlərdə kənd düşmənin ağır silahlardan atdığı mərmilərlə xarabaya dönmüşdü. Sakinlər həm azğınlaşmış düşmənlə, həm də aclıqla mübarizə aparsa da, sınmadı, əyilmədi. Çətin idi, amma mübarizədən dönmürdük. Bir posta elə olurdu ki, onlarla igid can atırdı. Sədərək döyüşlərində göstərilən qəhrəmanlıq haqqında nə qədər danışsam, azdır. Bircə onu bilirəm ki, bizim üçün Vətəndən, torpaqdan əziz heç nə yox idi, indi də elədir. Döyüşə gedən oğullar öz ailələrini kənddən çıxarmır, “biz döyüşüb, sizi qoruyacağıq”,– deyirdilər. Analarımız, qadınlarımız evlərdə qalıb bizə – səngərə isti çörək, yemək bişirib göndərirdilər. Bəzən isə elə olurdu ki, günlərlə ac qalırdıq, yenə də döyüşürdük. Həmin il qış da sanki öz “cəsarətini” göstərirdi. Elə soyuq, şaxtalı havalarda isti geyim, yanacaq olmadan döyüşür, düşmənə layiqli cavab verirdik.

Yadulla Ələkbərov onu da deyir ki, Sədərək döyüşlərində bacısının həyat yoldaşını və əmisi nəvələri – kiçik yaşlı Elvini və Maliki itiriblər. Bütün bunlar onların döyüş əzmini sındırmayıb, şəhidlərimizin olması onların qisas hissini daha da alovlandırıb. O deyir:

– Bu xalq, bu millət heç bir zaman düşmənə baş əyməyib, əyməyəcək də. Bunu Vətən müharibəsində sübut etdik. Babalarımızdan bizə yadigar qalan və oğullarımıza ərməğan etdiyimiz hünər və cəsarəti onlar da Vətən müharibəsində dünyaya nümayiş etdirdilər. 30 ildir, düşmən caynağında qalan torpaqlarımızı düşməndən azad etdilər. Vətən müharibəsinə qardaşım və əmimoğlu birlikdə yollanmışdı. Əmimoğlu Niyaməddin Ələkbərov şəhidlik zirvəsinə yüksəldi,



qardaşım Şuşaya kimi döyüş yolu keçdi, qalib ordunun qalib fərdi kimi bu gün xidmətini davam etdirir.

***Qalib İsmayılov*** bir igidin – Sədərək kəndinin ilk şəhidi Elmanın qardaşı, Vətən müharibəsi döyüşçüsü Əmirxan Quliyevin dayısıdır. O, Ucubizdə, Kərkidə, Mil təpəsində, Qaraağada döyüşüb. Deyir ki, yanvarın 19-dan 20-nə keçən gecə başlayan döyüşlərdə silahımız, isti geyimimiz olmasa da, qəlbimizi isidən Vətən sevgimiz var idi. Səngərdə “haralısan?” sualı yox idi, təkcə Vətən var idi. Hamımız yaxşı dərk edirdik ki, qeyrət qalamız Sədərəkdir, onu itirsək, bütün Naxçıvanı təhlükəyə atarıq. Hamı bir olub, əlbir olub hər hədəfə – düşmənə qarşı döyüşürdü. Elə gecə olurdu ki, səhərə qədər nəfəs belə, almadan döyüşürdük. Sərt hava şəraiti, silah azlığı bizi sındırmırdı. Onlar səhərə kimi dinc Sədərəyi güclü atəşə tuturdular. 12 min əhalinin yaşadığı kəndin hər səhəri döyüşlə açılırdı. İgid döyüşçülərimiz mərdlik göstərərək düşmənin iradəsini qırmağa nail oldular. Bir-birindən qeyrətli oğullar canlarını Vətən yolunda qurban verirdi. Cəbhədə olan hər kəs əli silah tutanların necə qəhrəmancasına vuruşduqlarının şahidi olurdular. Toplardan və zirehli texnikalardan atılan mərmilərlə kəndin yolu-izi də tamam dağıdılmışdı. Həmin günlərdə ulu öndər Heydər Əliyevin xalqa televiziya ilə müraciəti qədim diyarın qeyrətli oğul və qızlarını Vətəni daha cəsarətlə qorumağa səslədi.

*Nə yaxşı ki, o vaxt ulu öndərimiz Naxçıvanda idi. Onun gəlişi ilə torpaq azad nəfəs almağa başladı. İnsanlarda inam, qətiyyət, qələbə hissi baş qaldırdı. Bəli, Onun gəlişi ilə Naxçıvanın başı üzərində Günəş doğmuşdu. Bu Günəş qara buludları dağıdır, havaya bir aydınlıq, istilik gətirirdi. Bu dahi şəxsiyyət Heydər Əliyev Günəşi idi. O böyük insanın – Heydər Əliyevin onu canı qədər sevən, ona özü kimi inanan insanların qarşısında* ***“Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycan dövlətinin müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır”****, – deməsi onlarda qələbə, inam əzmini gücləndirdi. Sədərək döyüşlərində bütün Naxçıvan diyarının qeyrətli, igid oğulları mərdliklə vuruşdular və qalib gəldilər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

***Bir ildən artıqdır ki, 44 gün çəkən Vətən müharibəsi başa çatıb. Doğma Qarabağımız işğaldan azad edilib. İllər, hətta aylar əvvəl bu, bir yuxu kimi görünürdü bəzilərinə. İndi isə gerçəkdir, torpaqlarımızı düşmən əsarətindən azad etmişik. Şübhəsiz ki, buna qəhrəman oğullarımızın sayəsində nail olduq. Şücaətləri ilə dünyaya səs salan igidlərimiz yeni tariximizə adlarını qalib kimi yazdırdılar. Bu yolda canlarını, qanlarını fəda etdilər.***

# Tarix yazan qəhrəmanlar



Bu gün “Kaş biz də şəhadətə qovuşardıq”, – deyən qazilərimiz var. Onlardan kimisinin gözü zədələnib, kimisinin ayağı, kimisinin də qolu yoxdur – canlarının bir parçasını torpağa pay verib, onu Vətənə çeviriblər. Buna rəğmən üzlərindən gülüş əskik olmur. Hamısı bir söz deyir: “Vətən sağ olsun!” Bir sözlə desək, Azərbaycan Ordusunun Zəfərlə bitirdiyi Vətən müharibəsi bizə çox sayda qəhrəman əsgər və zabit tanıtdı. Onlardan biri də qazi Nurlan Quliyevdir. Onunla söhbət zamanı bildirdi ki, 1994-cü ildə Şərur rayonunda anadan olub. Orta təhsilini 2001-ci ildə Eynalı Sultanov adına 7 nömrəli məktəbdə alıb. 2012-ci ilin iyun ayında “N” hərbi hissədə həqiqi hərbi xidmətə başlayıb. Evdən xəbərsiz olaraq kəşfiyyata yazılıb. Xidmətini 2013-cü ilin dekabrında bitirib. Hərb sənətinə marağı onu yenidən bu sahəyə qaytarıb. Xüsusi təyinatlı qüvvələrə sənəd verərək qəbul olunub. Xidməti boyu 30 il düşmən tapdağında olan torpaqlarımızın azad olunmasını səbirsizliklə gözləyib. Nəhayət ki, 2020-ci il sentyabrın 27-də başlayan döyüşlər və ordumuzun düşmən üzərinə yeriməsi içindəki qisas hissini birə-beş artırıb: – Hamı qəhrəmancasına döyüşürdü, heç kimdə qorxu yox idi. Çünki biz öz tarixi torpağımız uğrunda, haqq-ədalət yolunda vuruşurduq. Lakin noyabrın 5-də döyüş yoldaşım yaralı olduğu üçün ona yaralıların yanına gətirdiyim zaman düşmənin minomyot atəşi ilə vuruldum. Həmin an qolumun olmadığını hiss etdim, bir düşündüyüm o oldu ki, bütün rayonların azad olunmağını, yaxınlarımı və əzizlərimi heç vaxt görməyəcəm, amma özümdə güc toplayaraq çıxdım. Sürünərək dərəyə düşdüm, orada qızğın döyüş getmişdi. Gecə saat 10-11 radələrinə qədər gözlədim. Gecə düşdüyüm yerdən çıxarıldıqdan sonra xərəkdə 36 saat yol getdim. Xəstəxanada xalqın, millətin, arxa cəbhənin, həkimlərimizin bizə qarşı necə yanaşdıqları diqqətimi cəlb etdi. Mən düşünürəm ki, bir ana ki övladını gözünü qırpmadan ölümə göndərirsə, deməli, bu xalq kimi xalq yoxdur. Müəyyən xəstəxanalarda yatdım, əməliyyatlar keçirdim və təəssüf ki, xüsusi təyinatlı qüvvələrə qayıda bilmədim. İkinci Qarabağ müharibəsinin qazisi kimi ehtiyata buraxıldım. Bu gün fəxr edirəm ki, torpaqlarımızın geri qaytarılmasında mənim də əməyim olub. Bizə göstərilən diqqət və qayğının davamlı olduğunu görürəm. Bunun nəticəsidir ki, döyüşdən əvvəl olan kredit borcum silindi. Mənzil və avtomobil siyahısına adımın qeyd edilməsi, qısa müddətdə pensiyamızın, sığorta pulumuzun təmin olunması göstərilən dövlət qayğısının bariz nümunəsidir.

II Qarabağ müharibəsinin fatehlərindən biri olan Nurlan Quliyev Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Şücaətə görə”, “Xocavəndin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Bəli, bu qələbəni bizə bəxş edən igid əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastana çevrilib. Biz Vətən uğrunda canlarından keçmiş eloğullarımızı heç zaman unutmayacağıq. Lakin belə faciələrin təkrar olunmaması üçün gərəkdir ki, düşmən də öz acı məğlubiyyətindən dərs alsın. Əks halda Azərbaycanın dəmir yumruğu erməni faşizminin başını bir daha əzə bilər. Mənfur düşmən dəmir yumruğun gücünü Nurlan və onun döyüş yoldaşlarından yaxşıca görüb...

✍ **Aytac CƏFƏRLİ**

# *“Naxçıvan Premium Turniri-2”*də növbəti oyunlar keçirilib



*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində təşkil olunan şahmat üzrə “Naxçıvan Premium Turniri-2”də 6-cı tura yekun vurulub.*

Bu turda İlkin Qəbulovu (1602) sınağa çəkən beynəlxalq usta Talıb Babayev (2258) qələbə qazanıb. Liderlər cədvəlində yer alan Sadiq Qarayev (2126) bu turda uğursuzluğa düçar olub. Beynəlxalq qrossmeyster Urfan Sevdimalıyevlə (2353) görüşdə o, məğlubiyyətlə üzləşib. Ayxan Əliyevlə (1983) üz-üzə gələn FIDE ustası Sadiq Məmmədov (2177) isə ağ-qara taxtanı “sülh”lə tərk edib. 6-cı turda beynəlxalq usta Toğrul Həsənzadə (2293) FIDE ustası Nəsrin Babayevadan (2017), beynəlxalq usta Pərviz Qasımov (2359) isə Seyid Hüseyndən (2098) üstün olub. Nazlı Hümbətova (1629) bu turu qələbə ilə başa vurub. O, Rza Həsənlini (1582) məğlub etməklə aktivinə bir xal yazdırıb. 6 turdan sonra turnir cədvəlinə 4,5 xalla Talıb Babayev, Sadiq Məmmədov, Pərviz Qasımov və Urfan Sevdimalıyev başçılıq edirlər.

7-ci turda aşağıdakı görüşlər keçiriləcək:

*İlkin Qəbulov - Toğrul Həsənzadə*
*Sadiq Qarayev - Talıb Babayev*
*Nəsrin Babayeva - Ayxan Əliyev*
*Sadiq Məmmədov - Nazlı Hümbətova*
*Rza Həsənli - Seyid Hüseyn*
*Pərviz Qasımov - Urfan Sevdimalıyev*

✍ **Ceyhun MƏMMƏDOV**

## Bildiriş

“Optimal Karqo” Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək “Optimal Elektron Ticarət” Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

## İtmişdir

Şərur rayonu, Danyeri kənd sakini Məmmədov Hüseyn Əhməd oğlunun adına olan JN-762 inventar nömrəli 10200078 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Məmmədəli Həsən oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kəndində yaşamış Əsgərova Həcər Rza qızının adına olan JN-201ᴬ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 56